**UOT 745/749**

***Səbinə Tutayuk***
***Azərbaycan Dövlət Rəssamlıq***
***Akademiyasının dissertantı***
***AZ1029, Bakı, Heydər Əliyev pr.58***
***E-mail:*** narisrafil@mail.ru

# DİNİ MEMARLIQ TİKİLİLƏRİNDƏKİ DEKOR KOMPOZİSİYALARIN ÜSLUB XÜSUSİYYƏTLƏRİNİN MÜQAYİSƏLİ TƏHLİLİ

**Xülasə:** Məqalədə dini memarlıq tikililərinin dekor tərtibatının üslub xüsusiyyətləri memarlıq nümunələrinə istinadən aparılır. Məqalədə İçərişəhər Cümə məscidinin epiqrafik quruluşların, dekor detallarının qarşılıqlı analizi, memarlıq detallarının qurulma qaydaları, prinsip və özünəməxsus xüsusiyyətləri araşdırılır. Müəllif bir daha təsdiq etdi ki, dini memarlıq tikililərinin də dekor tərtibatları, dekor kompozisiyaları müəyyən həndəsi qanunauyğunluqlar, prinsiplər əsasında aparılır ki, bu ziyarətçilırin zövqünü oxşamaqla bərabər insanla Böyük Yaradan arasında sanki bir dərk etmə vasitəçisi olur.

**Açar sözlər:** məscid, dekor tərtibatı, üslub xüsusiyyətləri, müqayisəli təhlil.

Müsəlman dünyasının möhtəşəm tarixi abidələri siyahısında dini tikililərin xüsusi önəm kəsb etdiyi məlumdur. Məscid, mədrəsə, türbə, ziyarətgah, pirlər və s.dini tikililər İslam memarlığı nümunələridir. İnsanların və eləsə də onların təmsil etdikləri cəmiyyətin hərtərəfli formalaşmasında çoxsaylı funksiya yerinə yetirən məscidlər, dini memarlıq abidələri arasında daha əhəmiyyətli yer tutur. Orta əsrlərdə məscidlər təkcə ibadət üçün nəzərdə tutulmur, onlar həm də insanları birləşdirən, xalqı milli vəhdətə aparan, nizam-intizam yaradılmasında vacib məkan hesab olunurdu. Bu indi də belədir.

Məscid-ziyarətgah komplekslərinin memarlıq quruluşunda bütün müsəlman Şərqi üçün xarakterik bir sıra ümumi cəhətlər vardır. Onlar, məscidlərin minarələri, dəstəmaz otağı, ibadət otağı, xanəgahı, həyəti, xarici görkəmində isə göy, ağ, sarı kimi üç rəngli kaşı ilə örtülməsidir. Məscidlərin idarə olunmasında əsasən dini təhsil alan, şəriət qayda-qanunlarını mükəmməl bilən şəxslər mühüm rol oynayırdılar. Məscidlərin nəzdində mədrəsələr də fəaliyyət göstərirdi. Digər tikililərdən bir fərqləri də onların divarlarında əsasən Quran ayələri, dini mövzular və tikilinin inşa tarixinin yazılmasıdır. Azərbaycan məscidləri adətən, yaş suvaq,

daş, yaxud ağac üzərində bədii oyma, kərpic və ya daş hörgüdən əmələ gələn naxışlar, şirli keramika və divar rəsmləri ilə bəzədilirdi [1.s.249-251]. Təbriz memarlığında əsas inşaat materialı bişmiş kərpic olduğundan əksər məscidlər də bununla tikilirdi. Bu hal Avropa və Müsəlman Şərqinin dini tikililərini ayıran üslub xüsusiyyətlərdəndir.

Məqalədə məqsəd, dini tikililərin səthini bəzəyən ornamentlər, kitabələrin daşıdığı funksiyalar,oxşar və fərqli cəhətlərini də araşdırmaqdır. Əslində hər şey müqayisədə dərk olunur. Bu zaman aydın olur ki, eynilikdə müxtəliflik, müxtəliflikdə eyniliklər mövcuddur. Belə ki, memarlığın dərk olunmayan, lakin xüsusilə də dini memarlıq tikililərinin var olan çox böyük sirləri mövcuddur. Yəni tək, gözlə görünən hissələr yox, bu hissələri təşkil edən elə önəmli tikili sirləri vardır ki, hətta, bu sirlər tikilini layihələndirən, onu inşa edən sənətkarlara da məlum deyildir. Elə bu fikri təsdiqləmək üçün dini tikililərdən olan məscidlərin dekor tərtibatının araşdırılması maraq doğurur. Hər yerdə məscidlər müxtəlif görünüşlü olsalar da ümumi qanunauyğunluqlarla inşa edilirlər. Onların daşıdıqları funksiyaların da bir hissəsi insanlara aşkar ola bilər. Lakin bütünlüklə bu möcüzələr, sirlər, görünnəyən, lakin bəsirət gözü ilə dərk olunan, anlaşılması belə çətin olan özəlliklər təbii ki, bu ancaq Böyük Yaradana aiddir. Elə Böyük Yaradanın adlarından biri də "memar" – "qurub yaradan"dır. Məqalədə də elə bu səpgidə, qarşılıqlı analiz, sintez və məntiqi yanaşmalar aparılır.

Hətta Azərbaycanın dahi şairi Nizamı Gəncəvinin əsərlərindən Səlcuq dövrü memarları haqqında cox dəyərli, həm də fərqli məlumatlar almaq olur. Zamanın tələbləri səviyyəsində sözünü demək üçün elm adamları - eyni zamanda sənətkar, sənətkar isə alim olmalıdır fikri də dahi şairin fikirlərinə istinadən deyilir. Bu fikir XII əsrin dahisi, Nizami Gəncəvinin əsərlərindəki memarlar ulduzların işindən xəbərdar münəccim, göyölçən, ulduzşünas olmalıdır fikri ilə eynilik təşkil edir [2.s. 189-191]. Nizamiyə görə, memarın astronomiyanı bilməsindən öncə, tikilən binaya əlverişli vaxt və yön seçmək yollarını bilməsi əsas şərtlərdəndir. Nizami Gəncəvi ilə eyni dövrdə yaşayan dahi Əcəmi Naxçıvani öz möhtəşəm əsərlərini sanki şairin məntiqli fikri üzərində qurmuşdur. Əcəmini memarlıq məktəbibinin şah əsəri sayılan Möminə Xatun türbəsinin dekor tərtibatında memar, tikilinin bayır örtüyünün göy kaşılarla tərtib olunmasını göygünbəzə oxşatmış və onun altındakı yazı qurşağını "Ya Rəbb, bəd gözlərdən uzaq elə!" sözləri ilə bitirmişdir.

Məlumdur ki, məscidlərin günbəzləri çox vaxt ulduz naxışlarla örtüldüyündən kosmik təsəvvürlər arasında əlaqə kimi, məscidlərin göylərlə əlaqəsi daha aydın üzə çıxırdı. Dövrün memarlıq abidələrini yaradan memar, mühəndis, nəqqaşların biliyi, yaradıcılığı və ictimai mövqeyi barədə ən dolğun bilikləri də eyni zamanda dahi Nizaminin əsərlərindən almaq olur. Şairin memarlığa, memara yüksək qiymət verməsi, memar yaradıcılığına bələd olması da,dövrün ümumi yüksək mədəni səviyyəsinin tutarlı göstəricilərindən biridir. Bu baxımdan şairin "Yeddi gözəl" əsəri daha dəyərlidir. Kainatı, ulduzları bilməsi memara ucaltdığı binalarda İlahi nizam və mütənasiblik, bütövlük və ahəngdarlıq əldə etməyə imkan verirdi. Nizami dövrü abidələrinin əsas naxış növünün quruluşunda da ulduzlara

bənzərlik güclüdür [3.s. 42-47]. Elə dini memarlıq tikililərinin maraqlı üslub xüsusiyyətlərinin müqayisəsi üçün Nizami Gəncəvidən gətirilən misal, sanki məscidlərin təkrarsız dekor tərtibatının analizi kimi verildi.

Tədqiqatçıların fikrinə əsaslısnsrsq qeyd etmək olar ki, ulduzlara bənzər müxtəlif fiqurların formasını xatırladan hər bir naxış quruluşlarını da kosmosla insan arasındakı əbədi bağlılığın simvolları saymaq olar. Nizamiyə görə, memarlar riyaziyyatın nəzəriyyə və prinsiplərini dərindən öyrənirmişlər. Hələ XIV yüzillikdə Məhəmməd Naxçıvani memarlardan bəhs edəndə yazmışdır ki, "Həndəsə elmini bilməkdə onlara tay yoxdur". Həmin əsrin sonunda İbn Xəldun bildirmişdir ki, İslam ölkələrində həndəsi problemlərin çoxunu bilmək memar üçün zəruridir [4]. Əslinə qalanda əmələ gələn belə zərurət ilk növbədə memarlığın təbiətindən doğur. XI-XIII əsrlər abidələrinin həcm-məkan həllində naxış quruluşlarının əsasında dayanan ahəngdarlığın həndəsi mahiyyəti də bunu təsdiq edir. Bu dövrün məscidlərinin, qülləvari türbələrinin başlanğıc biçimləri həcmli həndəsi elementlərin əvəzinə, funksiyasına və materialına görə seçilməsi, plastik işləməli riyazi prinsiplərə və həndəsi ahəngdarlığa əsaslanırdı [5. s.85 –87 ].

Memarların, tədqiqatçı aimlərin fikrinə istinadən qeyd etmək olar ki, hansı dövrü təmsil etmələrinə baxmayaraq, monumental binaların üz örtüyü vahid konstruktiv sxemə malik olur. Orta əsr dini tikililərinin dekor tərtibatını izlədikcə,bəzi məscidlərin şirli kərpiclərlə üzlənməsi əsas hörgü qurtarandan sonra həll edildiyi aydın olur. Məscidlərdə əsasən şirli kərpiclər şaquli və üfüqi vəziyyətdə qoyulurdu. Üzlük kərpiclər bir qayda olaraq gəc məhlul ilə bərkidilirdi. Bu məhlulun möhkəmliyini nəzərə alaraq ustalar ondan seysmikliyi yüksək olan yerlərdəki tikililərdə də istifadə edirdilər. Bütün bu məlumatlardan və bir çox maraqlı dini tikililərin tərtibatını izlədikcə, başqa sahələrdə olduğu kimi burada da bir riyazi-həndəsi qanunauyğunluqlardan istifadə nəzərə çarpır. Bu məzmunda fərqli sivilizasiyaların, inancların və təsəvvürlərin olması əhəmiyyətli deyil, əhəmiyyətli olan sənətin biçimsəl, estetik və rahat olması qəbul edilməkdədir. Ayrıca hər sivilizasiya özündən əvvəlkindən aldığı tərtibat sahəsindəki bilğiləri, özündən sonrakı dövr sənət sahəsinə sevə- sevə ötürməkdədir.





*İçərişəhər Cümə məscidinin 1890-cı ildə ilk inşa edilmiş və bərpadan sonrakı XXI əsdəki görkəmi.*

Qeyd etmək olar ki, Azərbaycan memarlığının üslub xüsusiyyətlərindən biri də - günbəzli və çadır örtmələrin, portal, mehrab və tağçalardır. Bu detalların qurulması zamanı, bir həndəsi formadan digərinə kompozisiya keçidi yaratmağa imkan verən də stalaktitlərdir. Keçidlər çox zaman düzbucaqlı və ya kvadrat əsasdan günbəzə və ya tağbəndə yönəldilmiş olur. Hələ ilk dövrlərdə inşa edilməyə

başlanmış məscidlərin stalaktitləri, detalların işlənməsinin kobudluğu və kompozisiyanın nisbətən sadəliyilə seçilirdi Onlar sanki yastılanmış, qeyri-dəqiq idilər. Buna nümunə kimi IX əsrdə inşa edilmiş Bakı şəhərində yerləşən Məhəmməd məscidinin minarəsini göstərmək olar. Lakin daha sonralar, yəni XIV əsrdə inşa edilmiş İçərişəhərdəki Cümə məscidinin dekor tərtibatınına diqqət yetirdikdə onun stalaktit kəmərinin daha yüngül və bədii baxımdan plastik olduğunu görmək olur [6].Tikilmə tarixi 1890-cu ilə təsadüf edən bu məscidin inşa üslubu Şirvan-Abşeron memarlıq məktəbinə aid olmaqla, o, bir minarəli, bir günbəzli olaraq tikilmişdir.

Məscidin divarına həkk olunmuş binanın inşası haqqında olan kitabədə yazılıb:"709-cu ilin rəcəb ayında Əmir Şərəfəddin Mahmud bu tikilini yeniləmək əmri vermişdir".

Azərbaycan tarixində xüsusi araşdırmaları ilə tarixləşən Sara Aşurbəyli kitabə barədə" Şirvanşahlar dövləti" əsərində yazır: "*Bakı qalasında qədim Cümə məscidinin cənub tərəfindəki divarda ərəbcə yazılmış kitabədə binanın təmir olunduğu xəbər verilir. "Məlik əl-üməra və l-əkabir" (əmirlərin və əyanların məliki) Şərəf əd-Din Mahmud ibn Fəxr əd-Dinin adı çəkilir və h.709 (1309/10)-cu il tarixi göstərilir.*Görünür həmin dövrdə məscid təmir edilib genişləndirilmişdir. Hətta o da iddia olunur ki, bu məscid Atəşgah məbədinin yerindı inşa edilmişdir. Sonralar 1899-cu ildə məscid tamamilə uçurulmuş və Bakı xeyriyyəçisi Hacı Şıxəli Dadaşov tərəfindən yenidən inşa edilmişdir. Plan baxımdan mürəkkəb olan məscid bir neçə mərhələli və əsasən də ətraf memarlıq ansanblına uyğunlaşdırılaraq inşa edimişdir. Məscid daxili hissəsində kvadrat biçimli ibadət salonu və şimal tərəfində minarəsi ilə tamamlanır. Məscidin ibadət salonu planda kvadrat biçimli olub quruluşuna görə XII əsr köşk tipli məscidlərinə bənzəyir. Daxilindəki iri daş lövhələr kəsişərək, yuxarıya doğru daralır. Məscid ondan əvvəl tikilmə forması olan qaradam tipli yaşayış evlərinin örtük konstruksiyasına bənzəyən günbəzlə tamamlanmışdır. Günbəz bayırdan konus biçimlidir. Bayır biçiminə görə bu günbəz XII yüzildə ucaldılan Marağa-Naxçıvan memarlıq məktəbi türbələrinin çadır örtüklərini xatırladır. Günbəzin tərtibatında kaşının az işlədilməsi də həmin dövrün əlamətlərindəndir. Bu göstərilənləri və eləcə də minarəsinin kürsülüyünə hörülmüş tikinti kitabələrinin XII yüzilə aid edilməsini nəzərə alan tədqiqatçılar Bakı Came məscidinin əvvəlki günbəzli salonunun həmin əsrdə tikildiyini təsdiqləyirlər [7].



*İcərişəhər Cümə məscidinin möhtəşəm memarlıq dekor kompozisiyalı görünüşü*

İnsanları namaza çağırmaq üçün stalaktit qurşaqlı, taclı, minarə 1437-ci ildə tikilmişdir. Minarənin konus formalı kaşılı günbəzinin dekor tərtibatı Azərbaycan memarlıq sənətinin hətta o dövrlərdəki inkişafını göstərir və məscidin ümumi kompozisiyasına fərqlilik gətirirdi. Belə fərqli dekor tərtibatına

Şirvanşahlar saray kompleksi abidələrində də rast gəlinir. Minarənin dəqiq inşa tarixi Came məscidinin inşasından daha əvvəlki dövrə aid edilir [8]. Minarənin şərəfəsinin alt hissəsində daş üzərində kitabə həkk edilmişdir. Şərəfənin kənarları isə həndəsi fiqurlarla gözəl tərtibat işləri aparılmışdır. Dəfələrlə bərpa və inşa işləri aparılmasına baxmayaraq möhtəşəm görünüşü ilə dini memarlıq nümunəsi olan bu əzəmətli minarə, Bakı Came məscidi kompleksindən dövrümüzə gəlib çatmış daş yaddaşımız, memarlıq tariximizdir.

Məscidin dekor tərtibatıa gəlincə, böyük maraq kəsb edən onun kiçik diametrli günbəzini, mərkəz hissəsində dörd sütunla saxlayan kvadrat formalı ibadət zalı tamamlayır. Tikilinin memarlığında Şərq və Avropa klassik motivlərindən istifadə olunmuşdur. Girişin portalında Azərbaycan memarlığının əsas prinsiplərindən olan daş üzrə oymalar, geniş naxış palitrası, bədii epiqrafika və s.işləri görülmüşdür. Əsasən daş üzərində aparılan dekor tərtibatındakı naxış işlərinin keyfiyyəti çox mükəmməldir. Bu mükəmməlliyin əsasını da dekor kompozisiyalarının müəyyən memarlıq tərtibatı qaydaları əsasında qurulması təşkil edir. Göz oxşayan belə tərtibat işləri təbii ki, tam olaraq riyazi qanunauyğunluqlarla aparıldığından buradaki qurulma ardıcıllığı həndəsi qanunauyğunluqlar əsasında aparılmışdır. Məscidin daxili hissəsidə naqqaşlar əl ilə təkrarsız ornamental dekor kompozisiyaları yaratmışlar. Belə nəfs üsulla işlənimiş sahələrdə Qurani-Kərimdən müxtəlif surələr və İslamda müqəddəs olan Əhli -beyt üzvünün adının ərəbcələrini həkk edilmişdir.

Beləliklə, məqalədə dini memarlıq tikililərinin dekor tərtibatının üslub xüsusiyyətləri memarlıq nümunələrinə istinadən aparıldı. İçərişəhər Cümə məscidinin epiqrafik quruluşların, dekor detallarının qarşılıqlı analizi, memarlıq detallarının qurulma qaydaları, prinsip və özünəməxsus xüsusiyyətləri araşdırıldı. Bir daha aydın oldu ki, dini memarlıq tikililərinin də dekor tərtibatları, dekor kompozisiyaları müəyyən həndəsi qanunauyğunluqlar, prinsiplər əsasında aparılır. Bu ziyarətçilərin zövqünü oxşamaqla bərabər insanla Böyük Yaradan arasında sanki bir dərk etmə vasitəçisi olur.

## Ədəbiyyat:

1. Sara Aşurbəyli. Şirvanşahlar dövləti. Bakı: 2006
2. Zamanov N. Nizami poeziyası və təsviri sənət. Bakı: 1981.
3. Cəfər Qiyasi. Nizami dövrünün memarlıq abidələri. Bakı: 1991
4. wu.edu.az/_files/cultureAndArchiIslam2.pdf
5. Salahov M, Yusifova N. Memarlıqda həndəsi ornament motivləri. Ulduz. № 9, Bakı 2001, s.85 –87
6. Arxeologiya, etnoqrafiya Tarix və onun problemləri, № 1, 2013
7. Джума мечеть (Ичери-Шехер, Баку)"( (rus.)) //ourbaku.com.
8. https://az.wikipedia.org/wiki/Məscid

**Сабина Тутаюк**

**Сравнительное исследование декоративных композиций в религиозных строениях зодчества**

**Резюме**

В данной статье рассматриваются декоративное оформление мечетей, как исторических примеров величия восточного злжчества. Здесь же рассматриваются функции и различия орнаментов, украшающих ее плоскость, значение повествующих надписей. Отмечается геометрическая роль узоров строений в решении объемно-пространственной функциq. Здесь же дается сравнительный анализ относящийся к Ширвано-Апшеронской школе зодчества декоративное оформление Джума мечети в Ичери шехер, проводится сравнительный разбор экстерьера и купольного оформления мавзолеев Марагинско-Нахчыванской школы зодчества. Сталактический карниз, корона, декоративное оформление консуобразного с ирезной формой минарета мечети, построенной в 1437 году считается особенностью, привнесшей индивидуальность в декоративное оформление зодческой школы Азербайджана. Здесь же отмечаются особенности декоративной школы памятником комплекса дворца Ширваншахов.

**Ключевые слова**: мечеть, декоративное оформление, свойство стилей, сравнительный анализ.

**Sabina Tutayuk**

**A comparative study of the decorative compositions in architecture of religious buildings**

**Summary**

This article discusses the decoration of mosques as historical examples of the greatness of the Eastern architecture. Here are the functions and differences of the ornaments decorating its plane, the value of story-telling inscriptions. It is noted the geometric patterns of the role of buildings in solving spatial functions. Here a comparative analysis belonging to Shirvan-Absheron school of architecture the decoration of the Juma mosque in Icheri Sheher, a comparative analysis of eksterjera and dome decoration of the mausoleums of the Rasad khaneh-Nakhchivan school of architecture. Stalactites cornice, crown, decoration consobrina of the mosque's minaret, constructed in 1437, remains a feature, adding personality to the decoration of architectural schools of Azerbaijan. Here are noted features of decorative school in the monumental complex of Shirvanshahs Palace.

**Keywords**: mosque, decoration, property styles, a comparative analysis.

**Məqalənin redaksiyaya daxil olma tarixi: 25.05. 2018**
**Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 07.06. 2018**
**Məqalənin çapa qəbul olunma tarixi: 02.07. 2018**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı: sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Afət Aslanova**
**ADMİU-nun Elmi Şurasının 06 iyul 2018-ci il, 09 saylı qərarı ilə çap olunur**